AZƏRBAYCAN RESPUBLİKASI
KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ
-----------------------------------------------------------------------------------
AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**HÜSEYNOV TƏHMASİB FAİQ OĞLU**

# ƏMTƏƏLİK VƏ RƏQABƏT QABİLİYYƏTLİ KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALININ STİMULLAŞDIRILMASI

**5312.01-“Sahə iqtisadiyyatı”**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ-2016**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar kənd təsərrüfatı işçisi,
iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Anar Nizami oğlu Hətəmov**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu**

Müdafiə 10 iyun 2016-cı il saat $10^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 9 may 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş**
**dissertasiya şurasının elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru, dosent:** **A.A.Həsənov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Ərzaq təhlükəsizliyinin təmin edilməsi və daxili bazarın qorunması istiqamətində həyata keçirilən tədbirlər ölkənin iqtisadi suverenliyinin qorunub saxlanılmasının ən mühüm şərtlərindən biri hesab edilir. Müasir iqtisadi münasibətlər sistemində ərzaq təhlükəsizliyinin təmin edilməsi mühüm əhəmiyyət kəsb etməklə əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında əhəmiyyətli rol oynamaqdadır. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi isə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasından, onun rəqabətədavamlılığının yüksəldilməsindən bilavasitə asılıdır.

Aqrar islahatlar nəticəsində kənd təsərrüfatında uzun müddət mövcud olmuş dövlət və kollektiv kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti liberallaşdırılmış, sərəncamında olan əmlak və torpaq sahələri özəlləşdirilmişdir. Kənd təsərrüfatında mülkiyyətin özəlləşdirilməsi nəticəsində xüsusilə xırda mülkiyyət sahiblərinin sayı artmışdır. Fiziki şəxs statuslu ailə təsərrüfatlarının sayının artması kənd təsərrüfatında xüsusi mülkiyyətin hakim mövqe tutmasına gətirib çıxarmışdır. Lakin kənd təsərrüfatına yararlı torpaq sahəsinin məhdud olması, yaranmış kiçik ölçülü təsərrüfatların sərəncamında orta hesabla 1,5-3 hektara qədər torpaq sahəsinin olması, son nəticədə kənd təsərrüfatında rentabelli təsərrüfat fəaliyyətini həyata keçirməyə imkan vermir. Bundan əlavə kiçik həcmli təsərrüfatlarda növbəli əkin sistemini tətbiq etmək, maddi-texniki təminatı həyata keçirmək və iqtisadi prosesləri reallaşdırmaq mümkün olmur. Ailə təsərrüfatlarının torpaq sahəsinin həcminin kiçik olması nəticəsində onlar daha çox ərzaqlıq məhsul istehsal etməyə istiqamətlənmiş tədbirlər həyata keçirirlər. Belə bir şəraitdə kənd təsərrüfatında istehsalın intensivləşdirilməsinə nail olmaq mümkün olmur və daxili bazarın tələbatını ödəmək, rəqabət qabiliyyətli məhsul istehsalının artırılmasını təmin etmək və xarici bazarlara keyfiyyətli məhsullar ixracını həyata keçirmək çətinləşir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş 27 yanvar 2015-ci il tarixli konfransda ölkə prezidenti İlham Əliyev göstərmişdir ki, "Kənd təsərrüfatı məhsullarının istehsalı, daxili tələbatın ödənilməsi və ixracı bir sistem olmalıdır.".

Araşdırmalar göstərir ki, aqrar sahənin inkişaf etdirilməsinə istiqamətlənmiş zəruri tədbirlər nəticəsində kənd təsərrüfatında diversifikasiyalı inkişafa nail olunması mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatında inkişafın çoxşaxəliliyi nəticəsində ixracın həcmini artırmaq və dövlət büdcəsinə əlavə vəsaitin daxil olmasını stimullaşdırmaq mümkündür. Belə bir şəraitdə neftdən asılı iqtisadiyyatın zərərli təsirlərini aradan qaldırmaq mümkün ola bilər. Bütün bunları nəzərə alaraq kənd təsərrüfatında iri əmtəəlik təsərrüfatların formalaşdırılmasına xüsusi diqqətin artırılması vacib cəhətlərdən biri hesab edilir.

Kənd təsərrüfatında əmtəəlik və rəqabət qabiliyyətli məhsul istehsalının səmərəli təşkili hazırda dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu ilk növbədə daxili bazarın yerli istehsal hesabına təmin edilməsini, ölkənin ərzaq təhlükəsizliyinin qorunub saxlanılmasını, xaricə keyfiyyətli və rəqabət qabiliyyətli məhsul ixracının artırılmasını özündə birləşdirir. Kənd təsərrüfatında özəl təsərrüfatların iqtisadi vasitələrlə stimullaşdırmaqla kooperasiya halında birləşdirilməsi müasir şəraitdə ölkənin aqrar siyasətinin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu baxımdan əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına stimullaşdırmanın təkmilləşdirilməsi ilə nail olmaq mümkündür. Əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında dövlətin stimullaşdırma vasitələrinin rolu artırılmalı və daha da təkmilləşdirilməlidir. İstehsal, daxili tələbatın ödənilməsi və ixracın iqtisadi vasitələrlə stimullaşdırılması kompleks şəkildə həll edilməlidir. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş 26 yanvar 2016-cı il tarixli konfransda ölkə prezidenti İlham Əliyev göstərmişdir ki, “Yerli istehsal, idxaldan asılılığın azaldılması bizim gələcək dayanıqlı inkişafımızın əsas məsələsidir. ... İri fermer təsərrüfatlarının fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Orada məhsuldarlıq orta məhsuldarlıqdan təxminən iki dəfə çoxdur.”.

Bu baxımdan əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması istiqamətində həyata keçirilən dövlət tədbirlərinin təminatının formalaşdırılmasına böyük ehtiyac vardır. Bununla əlaqədar əmtəəlik və rəqabət qabiliyyətli kənd

təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması ilə bağlı tədqiqat mövzusunun seçilməsi aktuallıq kəsb edir. Qeyd olunanlar dissertasiya işinin aktuallığını şərtləndirən amillər kimi çıxış edir.

**Problemin öyrənilmə vəziyyəti.** Kənd təsərrüfatının inkişafının sürətləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalının dayanaqlı inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, məhsulun keyfiyyəti, rəqabət qabiliyyətinin yüksəldilməsi, əmtəəlik və ümumi məhsulun artırılması, iqtisadi mexanizmin təkmilləşdirilməsi və s. bu kimi problemlərin nəzəri və metodoloji əsasları ölkəmizin iqtisadçı alimləri Z.Ə.Səmədzadə, S.V.Salahov, M.M.Sadıqov, Ə.Ç.Verdiyev, İ.H.İbrahimov, İ.H.Alıyev, H.A.Allahverdiyev, B.X.Ataşov, R.Ə.Balayev, İ.V.Əhmədov, G.Ə.Gənciyev, H.A.Xəlilov, A.F.Abbasov, R.Ə.Quliyev, M.Ə.Hüseynov və başqaları tərəfindən geniş tədqiq edilmişdir. Əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının artırılması, onun rəqabət qabiliyyətinin yüksəldilməsinin stimullşadırılması xarici ölkələrin iqtisadçı alimlərinin də tədqiqat mövzusu olmuşdur. Bu baxımdan L.Abalkin, M.Ruzavin, N.Popov, E.Serova və başqaları bu sahədə dəyərli tədqiqatlar aparmışdır. Həmin alimlərin əsərlərində kənd təsərrüfatının inkişafı, əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı istehsalının artırılmasının zəruriliyi və digər amillər tədqiqatın predmetini təşkil etmişdir.

Lakin iqtisadçı alimlərin əsərlərində yeni iqtisadi münasibətlər və sahibkarlığın formalaşdığı şəraitində kənd təsərrüfatında əmtəəlik və rəqabət qabiliyyətli məhsul istehsalının iqtisadi mexanizmi və stimullaşdırılmasının təkmilləşdirilməsi məsələləri kompleks həllini tapmamışdır. İqtisadçı alimlərin tədqiqatlarında adı çəkilən problemin kompleks şəkildə öyrənilməsi məqsəd kimi qarşıya qoyulmamışdır. Bunları nəzərə alaraq dissertasiyada kənd təsərrüfatında əmtəəlik və rəqabət qabiliyyətli məhsul istehsalının iqtisadi mexanizmi və stimullaşdırılmasının təkmilləşdirilməsi məsələlərinə kompleks yanaşılmış və sistemli tədqiqat işi aparılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının formalaşdırılmasının elmi-nəzəri əsaslarını araşdırmaqdan, əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılmasının müasir vəziyyəti və inkişaf meyllərini təhlil etməkdən, iri əmtəəlik kənd təsərrüfatı müəssisələrinin timsalında

əmtəəlik məhsul istehsalının artırılmasının iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinə və stimullaşdırılmasına istiqamətlənmiş elmi cəhətdən əsaslandırılmış praktik əhəmiyyətli təkliflər işləyib hazırlamaqdan ibarətdir. Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilməsi təmin edilmişdir:

- əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının obyektiv zəruriliyi, rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir edən stimullaşdırıcı amillərin müəyyənləşdirilməsi və sistemləşdirilməsi;
- əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının investisiya, büdcə, kredit, subsidiya qiymət mexanizmlərinin formalaşması xüsusiyyətlərinin tədqiq edilməsi;
- ərzaq bazarında əmtəələrin rəqabət qabiliyyəti qiymətləndirilmiş və bu prosesə kənd təsərrüfatına stimullaşdırıcı amil kimi dövlət yardımlarının, subsidiyaların təsirinin qiymətləndirilməsi;
- əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixrac potensialı, onun yüksəldilməsinin emal və infrastruktur amillərinin müəyyənləşdirilməsi;
- rəqabət qabiliyyətli əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının stimullaşdırılmasında qiymət mexanizminin rolu və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- iri əmtəəlik kənd təsərrüfatı müəssisələrinin formalaşdırılmasının maliyyə-büdcə mexanizminin rolunun tədqiq edilməsi;
- əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında investisiya qoyuluşlarının rolu və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti olaraq Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsal edən təsərrüfat subyektləri, xüsusən iri əmtəəlik müəssisələr seçilmişdir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması ilə bağlı məsələlər təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri və metodoloji əsasını Azərbaycan Respublikasının və xarici

ölkələrin iqtisadçı alimlərinin əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması ilə bağlı apardıqları tədqiqatlar, eləcə də Azərbaycan Respublikasının Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları və digər normativ-hüquqi sənədləri təşkil edir.

Tədqiqatın metodunu müşahidə, məlumatların toplanması, dinamka, məlumatların qruplaşdırılması, ümumiləşdirməsi, təhlil və digər statistik metodlar təşkil edir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqat işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, elmi-tədqiqat institutlarının materiallarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- sahibkarlığın inkişafı şəraitində rəqabət qabiliyyətli əmtəəlik kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının zəruriliyi və onun neft amili ilə əlaqəsi tədqiq edilmişdir;
- əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir edən stimullaşdırıcı amillər kimi onun keyfiyyəti, ekoloji təmiz məhsul istehsalı, rəqabət, qiymət amili, istehsal xərclərinin həcminin aşağı salınması, eləcə də məhsuldarlığın səviyyəsinin yüksəldilməsi və bu kimi amillərin qarşılıqlı əlaqələri kompleks şəkildə müəyyənləşdirilmişdir;
- əmtəəlik və rəqabət qabiliyyətli ixrac yönümlü kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında iqtisadi mexanizmin tərkib elementlərinə, o cümlədən subsidiyalara və kreditlərin güzəştli şərtlərlə verilməsinə və digər bu kimi amillərə üstünlük verilməsi təklif edilmişdir;
- kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin iri təsərrüfatlarda məhsuldarlığın, əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında rolu müəyyənləşdirilmişdir;
- təminatlı qiymətlər sistemindən istifadə edilməsinin regionlar üzrə iri əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında rolu qiymətləndirilmişdir;

- stimullaşdırıcı amil kimi tədarük və əmtəə intervensiyalarından istifadə edilməsinin əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında rolu müəyyənləşdirilmişdir;

- torpaqların münbitliyinin artırılması, istifadəsiz torpaqların dövriyyəyə cəlb edilməsi və aqrar bazar infrastrukturlarının formalaşdırılmasının əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalına təsirin barədə təkliflər hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Əsaslandırılmış təkliflər respublikamızda əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılmasına, iri əmtəəlik təsərrüfatların yaradılmasına, əmtəəlik məhsul istehsalı kooperativlərin yaradılmasına və aqrar sahənin davamlı inkişafına imkan verə bilər. Hazırlanmış təklif və tövsiyələrdən əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması ilə bağlı müvafiq dövlət proqramlarının işlənib hazırlanmasında da istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Tədqiqatın əsas nəticələri əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması ilə bağlı təklif və tövsiyələr Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinə təqdim edilmiş və istifadə üçün qəbul edilmişdir. (16 fevral 2015-ci il, №31/15-62)

Dissertasiya işinin mövzusu üzrə ümumi həcmi 6,5 çap vərəqi olan 11 məqalə və 2 tədris proqramı çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla ümumi həcmi 166 səhifəni əhatə edir. İşdə 13 cədvəl, 140 adda ədəbiyyat siyahısı verilmişdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatin məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və s. göstərilmişdir.

**Dissertasiyanın birinci fəsli** "Əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının formalaşmasının elmi-nəzəri məsələləri" adlanır. Burada əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının obyektiv zəruriliyi və

elmi əsasları, əmtəəlik və rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir göstərən stimullaşdırıcı amillər, əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının iqtisadi mexanizminin formalaşma xüsusiyyətləri araşdırılmışdır.

Qeyd edilir ki, qloballaşma şəraitində hər bir ölkənin milli təhlükəsizliyinin təmin edilməsi, ilk növbədə bu və ya digər ölkədən iqtisadi asılılığın aradan qaldırılması ilə sıx əlaqədardır. İqtisadi təhlükəsizliyin mühüm tərkib hissəsini ərzaq təhlükəsizliyi təşkil etdiyini nəzərə alaraq hər bir ölkə özünün ərzaq təhlükəsizliyini təmin etmək istiqamətində zəruri tədbirlər həyata keçirməlidir. Bu tədbirlərin həyata keçirilməsinin obyektiv zəruriliyi isə, onunla bağlıdır ki, istər müharibə şəraitində, istər iqlim dəyişiklikləri şəraitində, istərsə də təbii fəlakətlərin baş verdiyi vəziyyətdə hər bir ölkə özünün zəruri ərzaq ehtiyaclarını təmin etməlidir. Siyasi, hərbi, eləcə də iqtisadi vəziyyətin və konyunktur dəyişmələrinin baş verməsindən asılı olmayaraq, ölkənin ərzaq asılılığına məruz qalması halları, son nəticədə siyasi asılılığın yaranmasına gətirib çıxarır ki, bu da ölkənin milli təhlükəsizliyinə xarici təhdidlərin təsirini gücləndirir.

Problemə bu aspektdən yanaşmaqla, ölkədə əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının stimullaşdırılmasına xüsusi diqqət yetirilməsi əsaslandırılır. Əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının formalaşdırılmasının obyektiv zəruriliyinə, ölkənin ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin artırılması və xarici bazara çıxış imkanlarının genişləndirilməsi şamil edilir. Bu, iri miqyaslı əmtəəlik təsərrüfatların inkişaf etdirilməsini və rəqabətə davamlı kənd təsərrüfatı məhsulları istehsalının formalaşdırılmasını və stimullaşdırılmasını qarşıya qoyur.

Tədqiqat göstərir ki, kənd təsərrüfatında məhsul istehsalının artırılmasına əksər hallarda ekstensiv inkişaf amilləri hesabına nail olunur. Yeni torpaq sahələrinin dövriyyəyə cəlb edilməsi, pambıqçılığın, tütünçülüyün, çayçılığın və kənd təsərrüfatının mühüm əhəmiyyətli sahəsi olan heyvandarlıqda mal-qaranın baş sayının artırılması, digər bu kimi hallar ölkədə kənd təsərrüfatı istehsalının həcminin artırılmasında mühüm amil kimi çıxış edir. Bu amillər kənd təsərrüfatında davamlı inkişafın təmin edilməsi istiqamətində artım sürətinə nail olunmasını məhdudlaşdırır. Bütün bu hallar kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasındakı disproporsiyaya

gətirib çıxarır. Kənd təsərrüfatının milli iqtisadiyyatdakı payının dəyişməsi kənd təsərrüfatı istehsalının artım sürətinin iqtisadiyyatın digər sahələrindəki iqtisadi artımına və regionların bütövlükdə sosial-iqtisadi inkişafına da əhəmiyyətli dərəcədə təsir göstərir. Ölkənin regionları əsas etibarilə kənd təsərrüfatı məhsullarının istehsalı istiqamətində ixtisaslaşmışdır. Ölkənin Bakı və Abşeron aqlomerasiyası istisna olmaqla, digər rayonlarda təxminən 95-97 faizə qədər məhsul istehsalının kənd təsərrüfatının payına düşür. Odur ki, kənd təsərrüfatında iqtisadi artımın təmin edilməsi ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malikdir. Bunları əsas götürərək, belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatında iri əmtəəlik təsərrüfatların yaradılması və onların rəqabətədavamlılığının yüksəldilməsinə xüsusi diqqət yetirilməlidir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş 26 yanvar 2016-cı il tarixli konfransda ölkə prezidenti İlham Əliyev göstərmişdir ki, "Biz mütləq daxili bazarımızı, yerli istehsalı qorumalıyıq, … mən çox istəyirəm ki, Azərbaycan məhsulları daha da çox istehsal olunsun, biz idxaldan asılılığı daha da azaldaq, iş yerləri yaradılsın, ixrac qabiliyyətli məhsullar istehsal edək. Ancaq bununla bərabər, əgər biz idxal mallarına süni əngəllər qoysaq, bu zaman rəqabət olmayacaq. Amma rəqabət əsasdır. Hər bir ölkənin inkişafı üçün azad, ədalətli, sərbəst rəqabət əsas şərtdir. Ona görə, burada iki amil nəzərə alınmalıdır. Həm qiymətlərin tənzimlənməsi, bütün süni maneələr, idxal qarşısında duran maneələr aradan götürülməlidir, eyni zamanda, daxili istehsal qorunmalıdır. ... Yerli istehsal, idxaldan asılılığın azaldılması bizim gələcək dayanıqlı inkişafımızın əsas məsələsidir. … çalışmalıyıq ki, indi xarici sərmayəni qeyri-neft sektoruna, ixracyönümlü məhsulların istehsalına yönəldək. … Azərbaycanda rəqabət qabiliyyətli məhsulu istehsal edən, bunu dünya bazarına çıxaran sahibkarlara dövlət tərəfindən güzəştlər edilməlidir."

İri əmtəəlik təsərrüfatların yaradılması xüsusilə taxılçılıqda və digər strateji əhəmiyyətli sahələrdə özünün müsbət nəticələrini verə bilər. İri əmtəəlik təsərrüfatların yaradılmasının iqtisadi səmərəliliyi, ilk növbədə həmin təsərrüfat subyektlərində istehsal edilən məhsulun həcminin yüksək olması, məhsulun satış imkanlarının genişlənməsi ilə sıx bağlıdır.

Tədqiqat göstərir ki, xırda əmtəə təsərrüfatları, daha doğrusu kiçik sahibkarlar istehsal etdikləri məhsulların reallaşdırılmasında çoxsaylı problemlərlə rastlaşırlar. Bu problemlərin yaranmasını şərtləndirən mühüm amillərdən biri kənd təsərrüfatında bazar infrastrukturlarının, satış qurumlarının zəif inkişaf etməsi ilə bağlıdır. Həm də xırda təsərrüfatlarda istehsal edilən məhsulun əmtəəlik səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağıdır. Xırda əmtəə təsərrüfatlarında istehsal edilən məhsulların əhəmiyyətli hissəsi daha çox şəxsi tələbatın ödənilməsi, kənd ailələrinin ailə ehtiyaclarının qarşılanmasına xidmət edir. Bundan əlavə xırda əmtəə istehsalçıları məhsulların bazara çıxarılması ilə bağlı çoxsaylı problemlərlə rastlaşırlar. Bu problemlərin yaranması ilk növbədə onların mərkəzi və regional bazarlara çıxış imkanlarının olmaması, eləcə də nəqliyyat sahəsində onların çoxsaylı problemlərlə üzləşməsi, maddi-texniki problemlərin mövcudluğu və vaxt itkisinin yaranması və digər məsələləri aid etmək olar. Kəndli istehsal etdiyi məhsulun hətta bazara çıxarılması prosesində belə satışından zəruri mənfəət əldə edə bilmir. Təbii ki, bütün bunlar isə növbəti illərdə məhsul istehsalının daha səmərəli şəkildə həyata keçirilməsinə, geniş təkrar istehsalın reallaşdırılmasına əlverişli şərait yaratmır. Bütün hallarda xırda əmtəə istehsalçılarının iqtisadi maariflənmə səviyyəsinin aşağı olması nəticəsində hətta onlar iqtisadi cəhətdən zərərlərlə mənfəət arasındakı prosesləri dəqiq müəyyənləşdirə bilmirlər. Bundan əlavə kəndlərdə ipoteka proseslərinin zəif inkişaf etməsi, hətta kəndlinin malik olduğu torpağın və tikililərin girov qoyulması şərti ilə kapital ehtiyatları əldə etmək imkanları da məhduddur. Belə bir imkanların mövcud olduğu şəraitdə xırda əmtəə istehsalçıları bütövlükdə iqtisadi cəhətdən müflisləşmə məcburiyyətində qala bilərlər. Belə ki, 1,5-3 hektar torpaq sahəsinə malik olan kəndli ailəsi, bütövlükdə kredit resursları əldə etdiyi şəraitdə belə səmərəli geniş təkrar istehsal qura bilmir. Son nəticədə kəndlinin torpağının mövcud əmlakının belə bank kreditinin yönəlməsinə gətirib çıxara bilər. Bu hal isə kəndlinin müflisləşərək kənddən şəhərə doğru axınının güclənməsinə səbəb ola bilər. Tədqiqat nəticəsində belə qənaətə gəlinir ki, kənd təsərrüfatında iri əmtəəlik təsərrüfatları yaradılmalıdır. Bu, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə gətirib çıxarmağa və bütövlükdə ölkənin milli

ərzaq təhlükəsizliyinin təmin edilməsinə əhəmiyyətli dərəcədə müsbət impulslar verə bilər.

İri əmtəəlik təsərrüfatların yaradılması və onların rəqabətə davamlılığının yüksəldilməsinin obyektiv zəruriliyini şərtləndirən amillərdən biri ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsi və eləcə də istehsal edilən məhsulun xarici bazara çıxış imkanlarının genişləndirilməsi ilə bağlıdır. İstehsal edilən məhsulun xarici bazara çıxış imkanlarının genişləndirilməsi, son nəticədə ölkədə makroiqtisadi problemlərin həllinə də əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər. Xüsusilə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsində bu proses özünü daha aşkar büruzə verir. Belə ki, ötən əsrin 80-ci illərində dünya iqtisadiyyatında "Holland sindromu" adı altında baş verən iqtisadi problemin aradan qaldırılması sahəsində Hollandiyanın təcrübəsi xüsusilə maraq doğurur. Belə ki, Şimal dənizində çıxan neftin istehsalının zəifləməsi nəticəsində Hollandiyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi halları müşahidə olunmuşdur ki, bu həmin ölkənin dövlət büdcəsinə daxilolmaların həcminin azalmasına gətirib çıxarmışdır. Hollandiyada bu böhrandan qeyri-neft sektorunun inkişaf etdirilməsi, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalının artırılması və intensivləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində çıxmaq mümkün olmuşdur. Həmin dövrdə Hollandiya nəinki, daxili ərzaq bazarına, eləcə də dünya ərzaq bazarına keyfiyyətli ət və süd məhsulları, Hollandiya qızıl gülləri ixrac etməklə dövlət büdcəsinə alternativ valyuta daxilolmalarını genişləndirmişdir. Həmin dövrdən etibarən hal-hazıradək Hollandiyanın iqtisadiyyatında qeyri-neft sektoru kimi kənd təsərrüfatı və emal sənayesinin rolu əhəmiyyətli dərəcədə yüksək olmaqda davam edir. Hələ də Hollandiya dünya ölkələrinə "holland qızıl gülü", "hollandiya pendiri" "hollandiya süd məhsulları və ət məhsulları" ixrac etməkdə davam edir. Bütün bunlar ölkənin iqtisadiyyatının diversifikasiyasının təmin olunmasına da müsbət təsir göstərir.

Bu təcrübəyə əsaslanaraq hesab edirik ki, iri əmtəəlik təsərrüfatların formalaşdırılması və onun rəqabətə davamlılığının yüksəldilməsi, iqtisadiyyatın diversifikasiyasının güclənməsinə əlverişli şərait yaratmaqla yanaşı, qloballaşma şəraitində xarici rəqabətin əlverişsiz təzahürlərinin iqtisadiyyata nüfuz etməsini də məhdudlaşdırar. Əmtəəlik təsərrüfatların formalaşdırılması və

stimullaşdırılması kənd təsərrüfatı ilə emal sənayesi arasında inteqrasiya əlaqələrinin gücləndirilməsinə də əlverişli şərait yarada bilər. Belə ki, iri əmtəə təsərrüfatlarında istehsal edilən məhsulların, nəinki ərzaq bazarında əmtəə təklifinin həcminin artırılmasına əhəmiyyətli təsir edər, eyni zamanda iri əmtəəlik təsərrüfatları emal sənaye müəssisələri ilə müqavilələr bağlayar və həmin müqavilələr nəticəsində istehsal edilən məhsulların emal müəssisələrinə verilməsi, bütövlükdə əmtəəlik təsərrüfatların bu prosesdən də daha çox iqtisadi gəlir əldə etmələrini şərtləndirər.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı ərzaq məhsullarının xarici rəqabətin əlverişsiz təzahürlərindən qorunması, xarici bazara çıxış imkanlarının genişləndirilməsi baxımından hazırda əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsinə diqqət artırılmalıdır. Əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsinə bir sıra amillər təsir edir. Bu amilləri aşağıdakı aspektdə təsnifləşdirmək mümkündür:

- təbii iqlim amilləri;
- texniki və təşkilati amillər;
- iqtisadi amillər;
- konyunktur amilləri;
- sosial amillər.

Əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsinə zəruri iqtisadi vasitələrlə yardım göstərilməlidir. Kənd təsərrüfatında məhsulların əmtəəlik səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsində iqtisadi mexanizmin rolu, ilk növbədə iqtisadi vasitələrlə bu prosesə dəstək göstərilməsini özündə əks etdirir. Əmtəəlik kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının iqtisadi mexanizmi əsas etibarilə kənd təsərrüfatı məhsulları və sənaye məhsulları arasında disproporsiyaların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərlə sıx bağlıdır. Lakin mövcud institusional şərait kənd təsərrüfatında iqtisadi artım sürətinin davamlı xarakter daşımasını ləngidir. Bütün bunları nəzərə alaraq, iqtisadi mexanizmin hərəkətə gətirilməsini, daha doğrusu mövcud iqtisadi stimullaşdırma amillərinin dəyişən iqtisadi şəraitə uyğunlaşdırılmasına nail olmaq vacibdir. Nəzərə almaq lazımdır ki, əmtəəlik kənd

təsərrüfatı məhsulları istehsalının artırılmasının iqtisadi mexanizminin formalaşdırılması və onun dəyişən konyunktur şəraitinə uyğunlaşdırılması, son nəticədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır.

Araşdırmalar göstərir ki, əmtəəlik kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının stimullaşdırıcı iqtisadi mexanizmlərinə əsas etibarilə qiymət, maliyyə-kredit, vergi, investisiya və s. şamil etmək olar.

Bu iqtisadi mexanizmlər və bütövlükdə makroiqtisadi amillər əmtəəlik kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına əlverişli şərait yaratmaqla, eyni zamanda aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsində də mühüm mənbə rolunu oynayır. Əslində kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına əlverişli şərait yaradan bu iqtisadi mexanizmlər, bütövlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından vəzifə rolunu oynayır.

**Dissertasiyanın ikinci fəsli** "Rəqabət qabiliyyətli və əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının müasir vəziyyəti və inkişaf meylləri" adlanır. Bu fəsildə kənd təsərrüfatında istehsal olunan məhsulların mövcud əmtəəlik səviyyəsi, kənd təsərrüfatı və ərzaq məhsullarının rəqabət qabiliyyətinin və məhsul istehsalına göstərilən dövlət yardımlarının dinamikası qiymətləndirilmiş, əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixrac potensialının stimullaşdırılmasının mövcud vəziyyəti təhlil edilmişdir.

Kənd təsərrüfatında əmtəəlik məhsul bilavasitə bazarlarda reallaşdırılan və müxtəlif satış kanalları vasitəsilə tədarük edilən məhsulun həcmi kimi xarakterizə edilir. Bu zaman əmtəəlik məhsulun həcminin artırılmasına həm məhsul istehsalının səviyyəsi, həm də bazarda satış qiymətinin səviyyəsi əhəmiyyətli dərəcədə təsir göstərir. Ümumiyyətlə kənd təsərrüfatında satışdan pul gəlirləri əmtəəlik məhsulun həcminin artırılması ilə sıx əlaqəlidir. Odur ki, kənd təsərrüfatında məhsul satışında pul gəlirlərinin artırılması məqsədilə, ilk növbədə bazara çıxarılan məhsulun həcminin artırılmasına və keyfiyyətli olmasına nail olmaq, ekoloji təmiz məhsul hesabına kənd təsərrüfatı məhsullarının satış qiymətinin yüksəldilməsini təmin etmək lazımdır. Kənd təsərrüfatında bazara yönəlik məhsul istehsalının həcminin artırılması üçün isə satış kanallarının sayının artırılmasına, infrastrukturların stimullaşdırılmasına diqqət yetirilməlidir.

Kənd təsərrüfatında əmtəəlik məhsulun həcminin artırılması onun rəqabətə davamlılığının yüksəldilməsində əhəmiyyətli şərtlərdən biri hesab edilir. Əmtəəlik səviyyəsinin yüksəlməsinin vacib şərtlərindən biri məhsuldarlığın səviyyəsinin artırılması və eləcə də məhsulun bazara çıxarılması imkanlarının genişləndirilməsi ilə bağlıdır. Məhsuldarlığın səviyyəsinin yüksəldilməsi hesabına respublikamızda kənd təsərrüfatının ümumi məhsulunun həcmini stimullşadırıcı vasitələrlə artırmaq mümkündür. Məhsulun bazara çıxarılması imkanlarının genişləndirilməsi hesabına isə kənd təsərrüfatında əmtəəlik səviyyəsinin yüksəldilməsinə nail olmaq mümkündür. Ümumiyyətlə məhsuldarlıq son nəticədə kənd təsərrüfatında istehsalın intensivləşdirilməsinin vacib şərtlərindən biri hesab edilir. İntensiv üsullarla məhsul istehsalının artırılması hesabına əlavə sahə cəlb etmədən vahid sahədən məhsul istehsalını artırmaq mümkün olur. Bu isə bütövlükdə kənd təsərrüfatı istehsalının artırılması, onun bazara çıxarılacaq həcminin genişləndirilməsinə və məhsulun maya dəyərinin aşağı salınmasına gətirib çıxara bilir. Beləliklə məhsuldarlığın səviyyəsinin yüksəldilməsi hesabına məhsulun maya dəyərini aşağı salmaq və satışdan əldə edilən pul gəlirlərinin və mənfəətin həcmini artırmaq əsas vəzifələrdən olmalıdır. Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının dinamikası 1-ci cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 1.**

**Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının dinamikası**

**(sent/ha)**

| İllər | Dənli və dənli paxlalılar | Pambıq | Tütün | Kartof | Tərəvəz | Ərzaqlıq bostan bitkiləri | Şəkər çuğunduru | Dən üçün günəbaxan |
|---|---|---|---|---|---|---|---|---|
| **Bütün təsərrüfat kateqoriyaları** | | | | | | | | |
| **1995** | 15,1 | 13,0 | 14,6 | 97 | 157 | 73 | 55 | 2,3 |
| **2000** | 23,8 | 9,1 | 22,2 | 84 | 133 | 98 | 210 | 9,6 |
| **2005** | 26,5 | 17,5 | 25,7 | 149 | 140 | 121 | 132 | 14,8 |
| **2010** | 20,7 | 12,7 | 24,0 | 145 | 142 | 137 | 304 | 17,1 |
| **2011** | 25,4 | 15,5 | 24,9 | 144 | 146 | 144 | 346 | 17,5 |
| **2012** | 27,2 | 19,5 | 27,9 | 147 | 150 | 143 | 332 | 17,9 |
| **2013** | 27,5 | 19,3 | 28,4 | 152 | 154 | 151 | 331 | 18,9 |
| **2014** | 24,0 | 17,9 | 25,8 | 133 | 152 | 157 | 309 | 17,0 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı müəssisələri və sair təşkilatlar** | | | | | | | | |
| **1995** | 15,1 | 13,0 | 14,7 | 35 | 63 | 39 | 55 | 1,9 |
| **2000** | 15,9 | 6,8 | 16,9 | 49 | 152 | 66 | 109 | 6,2 |
| **2005** | 19,4 | 16,1 | 24,4 | 112 | 115 | 95 | 80 | 8,9 |
| **2010** | 17,1 | 11,5 | 27,4 | 88 | 84 | 121 | 653 | 7,9 |
| **2011** | 23,3 | 12,7 | 15,2 | 113 | 114 | 185 | 610 | 12,2 |
| **2012** | 26,8 | 21,5 | 10,3 | 149 | 171 | 125 | 361 | 11,0 |
| **2013** | 28,2 | 18,4 | 10,6 | 135 | 215 | 154 | 506 | 9,7 |
| **2014** | 26,6 | 11,6 | 23,8 | 237 | 236 | 178 | 527 | 6,6 |
| **Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları** | | | | | | | | |
| **1995** | 16,6 | 13,7 | 5,0 | 109 | 221 | 154 | 46 | 5,3 |
| **2000** | 24,4 | 9,4 | 22,5 | 84 | 133 | 98 | 216 | 9,9 |
| **2005** | 26,8 | 17,6 | 25,7 | 149 | 140 | 121 | 136 | 15,0 |
| **2010** | 21,0 | 12,8 | 23,7 | 145 | 144 | 137 | 238 | 18,1 |
| **2011** | 25,6 | 15,8 | 25,2 | 144 | 146 | 143 | 294 | 18,1 |
| **2012** | 27,2 | 19,3 | 28,4 | 147 | 150 | 143 | 329 | 18,6 |
| **2013** | 27,5 | 19,4 | 29,4 | 152 | 153 | 151 | 301 | 19,8 |
| **2014** | 23,8 | 19,3 | 25,9 | 132 | 150 | 157 | 268 | 18,0 |

2014-cü ildə əsas növ kənd təsərrüfatı bitkilərinin məhsuldarlığında bu və ya digər şəkildə dinamika müşahidə edilsə də lakin kənd təsərrüfatında tam mənası ilə intensivləşmə təmin edilməmişdir. Belə ki, 2014-cü ildə dənli və dənli paxlalılar üzrə əsas intensivləşmə göstəricisi olan məhsuldarlığın səviyyəsi 24 sentner, pambıq üzrə 17,9 sentner, tütün üzrə 25,8 sentner, kartof üzrə 133 sentner, tərəvəz üzrə 152 sentner, ərzaq mənşəli bostan məhsulları üzrə 157 sentner, şəkər çuğunduru üzrə 309 sentner, dən üçün günəbaxan üzrə 17 sentner təşkil etmişdir.

Aqrar islahatların başlandığı 1995-ci illə müqayisədə 2014-cü ildə dənli və dənli paxlalılar üzrə məhsuldarlığın səviyyəsi 1,6 dəfə, pambıq üzrə 1,4 dəfə, tütün üzrə 1,8 dəfə, kartof üzrə 1,4 dəfə, ərzaqlıq bostan məhsulları üzrə 2,2 dəfə, şəkər çuğunduru üzrə 5,6 dəfə, dən üçün günəbaxan üzrə 7,4 dəfə artmışdır. Müqayisə olunan dövrdə tərəvəzin məhsuldarlığı 3,2% azalma baş vermişdir. Təhlil göstərir ki, dənli və dənli paxlalılar istehsalına əhəmiyyətli dərəcədə təsir göstərən məhsuldarlığın səviyyəsi demək olar ki, 1985-2010-cu illərdə 27 sentner göstəricisindən keçə bilməmişdir.

Bu onu göstərir ki, taxılçılıqda məhsul istehsalının artımı əsas etibarilə yeni əkin sahələrinin cəlb olunması hesabına baş verir.

Taxılçılıqda ekstensiv istehsal üsulu əhəmiyyətli rol oynayır və bu da kənd təsərrüfatına yararlı torpaq sahəsinin təxminən yarıya qədərinin taxıl altında istifadə olunmasına gətirib çıxarır. Taxılçılıq ərzaq təhlükəsizliyinin təmin edilməsində başlıca rol oynayan sahələrdən biridir. Lakin taxılçılıqda əmək sərfinin səviyyəsi kifayət qədər aşağıdır və bu da taxılçılıqla məşğul olan təsərrüfat subyektlərinin digər sahələr ilə müqayisədə məsələn üzümçülük və meyvəçilik ilə müqayisədə daha çox gəlir əldə etməsinə imkan vermir. Taxılçılıq ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm rol oynayır. 1995-ci ildən ötən dövr ərzində pambıqçılıqda məhsuldarlığın səviyyəsi 50% yüksəlsə də, məhsulun satış kanallarının yetərli dərəcədə təkmil, aqrotexniki tədbirlərin yerinə yetirilməməsi və pambıqçılıqda məhsulun satış qiyməti istehsalçı üçün sərfəli olmaması səbəbindən məhsuldarlığın səviyyəsi o qədər də yüksək deyildir. Nəzərə almaq lazımdır ki, 1985-ci ildə pambıqçılıqda məhsuldarlığın səviyyəsi 26,7 sentner təşkil etmişdir. Üzümçülükdə də təxminən oxşar vəziyyət müşahidə edilməkdədir. Ərzaqlıq bostan məhsullarının, şəkər çuğundurunun və dən üçün günəbaxanın məhsuldarlığının səviyyəsində yüksək artım meylləri müşahidə edilir. Bu isə onunla bağlıdır ki, xüsusilə şəkər çuğunduru sahəsində həm intensiv texnologiya tətbiq edilir, həm də həmin məhsulun emalı ilə respublikamızda konkret emal müəssisəsi fəaliyyət göstərir və bu da bazar konyunkturu ilə sıx əlaqədardır. Bazarın konyunkturu şəkərə olan tələbatın ödənilməsində yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsini stimullaşdırır.

Tədqiqat göstərir ki, son zamanlar meyvəçilikdə və üzümçülükdə məhsuldarlığın səviyyəsinin yüksəldilməsi meyli müşahidə edilməkdədir. Bu isə onunla bağlıdır ki, həmin sahələrdə ərzaq bazarının tələbatının ödənilməsi ilə yanaşı, məhsulların emal müəssisələrinə verilməsi sahəsində nisbətən yetkin inteqrasiya meylləri müşahidə edilməkdədir. Üzümçülükdə son illərə qədər əkin sahəsinin azalması və məhsuldarlığın səviyyəsinin aşağı düşməsi halları müşahidə edilirdi. Lakin son zamanlar xaricdən üzüm sortlarının gətirilməsi və onların regionlaşdırılması, bundan əlavə üzümçülüyə diqqətin artırılması, bütövlükdə istehsalın intensivləşdirilməsinə də təsir göstərir. Ayrı-ayrı sahibkarlıq qurumları tərəfindən üzüm əkilən sahələrin genişləndirilməsi, bütövlükdə bu gəlirli sahəyə diqqətin və

stimullaşdırıcı tədbirlərin artırılmasını şərtləndirmişdir. Təhlil göstərir ki, meyvəçilikdə məhsuldarlığın səviyyəsinin müqayisə olunan dövrdə 2,4 dəfə artmasına baxmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçıları ilə emal müəssisələri arasında inteqrasiya münasibətləri hələ də yetərli şəkildə qurulmamışdır. Belə ki, xüsusilə mövsümi situasiyalarda meyvə becərən əmtəə istehsalçıları öz məhsullarını dəyər dəyməzinə satır. Bir sıra hallarda isə saxlama kameralarının azlığı və ya istehsal edilən məhsulun kameralar da saxlanması imkanlarının istehsalçılar üçün qənaətbəxş olmaması səbəbindən istehsalçı bu sahədə əhəmiyyətli şəkildə gəlir əldə edə bilmir.

Araşdırmalar göstərir ki, texniki növ məhsullar üzrə əmtəəlik səviyyəsi 100% həcmindədir. Bu isə onunla bağlıdır ki, həmin məhsulların əhali tərəfindən birbaşa istehlakı mümkün deyildir və həmin məhsullar birbaşa emal müəssisələrinə verilir. Ərzaq məhsulları üzrə əmtəəlik səviyyəsinin dinamikası 2-ci cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 2.**

**Əsas növ ərzaq məhsulları üzrə əmtəəlik səviyyəsinin qiymətləndirilməsi**

| Əmtəələr | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| Ət və ət məhsulları (ət hesabı ilə) | 0,79 | 0,79 | 0,91 | 0,97 | 0,94 | 0,93 | 0,99 |
| Süd və süd məhsulları | 0,43 | 0,55 | 0,25 | 0,29 | 0,32 | 0,20 | 0,14 |
| Yumurta | 0,74 | 0,65 | 0,68 | 0,84 | 0,73 | 0,66 | 0,63 |
| Çörək məhsulları (un, çörək, makaron, yarma və s., un hesabı ilə) | 0,47 | 0,41 | 0,54 | 0,45 | 0,41 | 0,43 | 0,44 |
| Kartof | 0,48 | 0,31 | 0,50 | 0,52 | 0,52 | 0,54 | 0,56 |
| Tərəvəz | 0,59 | 0,62 | 0,69 | 0,68 | 0,68 | 0,67 | 0,72 |
| Meyvə və giləmeyvə | 0,63 | 0,63 | 0,67 | 0,65 | 0,62 | 0,58 | 0,61 |

Müqayisə olunan dövrdə ət və ət məhsullarının, tərəvəzin əmtəəlik səviyyəsi yüksəlmişdir. Bu isə bilavasitə onunla bağlıdır ki, həmin məhsulların emalı üzrə regionların sosial-iqtisadi inkişafı Dövlət

Proqramı ilə əlaqədar regionlarda emal və xidmət müəssisələri yaradılmış və bu da istehsal olunan məhsulların reallaşdırılması imkanlarının genişləndirilməsinə gətirib çıxarmışdır. Regionda emal müəssisələrinin yaradılması nəinki kənd təsərrüfatı məhsullarının əmtəəlik səviyyəsinin artmasına, həm də əhalinin məşğulluq imkanlarının genişlənməsinə və onların pul gəlirlərinin artmasına gətirib çıxarır. Odur ki, bu prosesin reallaşdırılmasına, xüsusən stimullşadırılmasına dövlət tərəfindən diqqət yetirilməlidir.

**Dissertasiyanın üçüncü fəsli** "Əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi" adlanır. Bu fəsildə əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılmasında investisiya qoyuluşlarının rolu, iri əmtəəlik təsərrüfatı müəssisələrinin formalaşmasının maliyyə-büdcə mexanizminin təkmilləşdirilməsi və stimullaşdırılması istiqamətləri, aqrar sahədə iri əmtəəlik təsərrüfatların formalaşdırılmasında qiymət mexanizminin təkmilləşdirilməsinin və stimullaşdırılmasının rolu müəyyənləşdirilmişdir.

Əmtəə istehsalçılarının səmərəli fəaliyyəti kənd təsərrüfatına investisiya ehtiyatlarının iri miqyasda ayrılmasından çox asılıdır. Kənd təsərrüfatına investisiya ehtiyatlarının yönəldilməsi kifayət qədər kompleks və mürəkkəb bir məsələni özündə əks etdirir. Bu kənd təsərrüfatında çoxsaylı xırda əmtəə istehsalçılarının mövcud olduğu şəraitdə daha çox aktuallıq kəsb edir. Kənd təsərrüfatına yönəldilən investisiyaların istər dövlət və istərsə də xüsusi mənbələrdən formalaşdırılmasından asılı olmayaraq bütövlükdə investisiyaların kənd təsərrüfatının inkişafında əhəmiyyəti böyükdür.

Əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına və rəqabətə davamlılığının yüksəldilməsinə istiqamətlənmiş stimullaşdırıcı investisiya siyasətinin həyata keçirilməsində məqsəd aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatında iqtisadi artımın digər sahələrlə müqayisədə aşağı olmasının qarşısının alınması;
- ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları istehsalının artırılması;
- kənd yerlərində yoxsulluğun səviyyəsinin aşağı salınması.

Kənd təsərrüfatında iri miqyaslı investisiya layihələrinin işlənib hazırlanması və həyata keçirilməsi prosesi, ilk növbədə sahibkarlıq subyektlərinin təşəbbüskarlıq səviyyəsinin yüksəldilməsinə, iri əmtəəlik təsərrüfatların formalaşdırılmasına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. İri əmtəəlik təsərrüfatların istehsal ehtiyatlarından istifadədə investisiya fəaliyyəti müxtəlif formalarda reallaşdırılır. Bu baxımdan kənd təsərrüfatına qoyulan investisiyaların aşağıdakı formaları fərqləndirilir:

- əsas fondların təkrar istehsalında, maddi-texniki möhkəmləndirilməsi və maliyyə qoyuluşları formasında həyata keçirilən kapital yatırımları;
- torpaqların münbitliyinin yaxşılaşdırılmasına, su ehtiyatlarının yaradılmasına, yeni tikililərin və ekoloji mühafizənin həyata keçirilməsinə istiqamətlənmiş kapital qoyuluşları;
- maddi-texniki ehtiyatların yaradılmasına vəsait qoyuluşu;
- səhmlər, istiqrazlar və digər qiymətli kağızlar formasında maliyyə vəsaitləri, eyni zamanda bank depozitləri, maliyyə aktivləri ilə bağlı xərclər.

Əmtəəlik təsərrüfatların formalaşdırılmasına qoyulan investisiyalar, milli, xarici valyuta, habelə natural və əşya formasında, qarışıq formada da yönəldilə bilər. İnvestisiyalar eyni zamanda kənd təsərrüfatına maddi və qeyri-maddi, dövlət və xüsusi, daxili və xarici, xüsusi cəlb edilmiş maliyyələşməsi formasında yönəldilə bilər. Tədqiqat işində maliyyələşmənin bu istiqamətləri geniş araşdırılır. Qeyri-maddi investisiya resursları isə, əsas etibarilə maddi-texniki resursların yeniləşdirilməsini, kənd təsərrüfatına yeni avadanlıqların gətirilməsini və s. özündə əks etdirir. Kənd təsərrüfatına dövlət büdcəsindən qoyulan investisiyalar isə, ilk növbədə iri miqyaslı maliyyələşmə proqramları çərçivəsində həyata keçirilir. Xüsusi mənbələrdən qoyulan investisiya resursları isə ayrı-ayrı sahibkarların, özəl təsərrüfat subyektlərinin, transmilli şirkətlərin vəsaitlərini özündə əks etdirir. Kənd təsərrüfatına qoyulan daxili mənbələrdən olan investisiyalar isə bütövlükdə ölkə sərhədləri çərçivəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən kənd təsərrüfatının investisiyalaşdırılmasını özündə əks etdirir. Xarici mənbələrdən investisiya qoyuluşları isə istər ayrı-ayrı xarici ölkələrdə və istərsə də

müxtəlif dünya kreditor təşkilatları tərəfindən yönəldilən vəsaitləri özündə əks etdirir.

Kənd təsərrüfatının alternativ mənbələrdən maliyyələşdirilməsi kimi əhalinin vəsaitlərinin kənd təsərrüfatında maliyyə ehtiyatı formasında çıxış etməsinin əhəmiyyəti əsaslandırılır. Əhalinin vəsaitlərinin kənd təsərrüfatında mobilliyinin təmin edilməsi aşağıdakı istiqamətlərdə reallaşdırılaması əsaslandırılır:

- istehlakçının investisiya layihələrinə marağının yüksəldilməsi;
- dövlətin qeyri-büdcə formasının yaradılması, bu əsasda həmin büdcə fondları tərəfindən mühüm, rentabelli layihələrin maliyyələşdirilməsi və əhalinin vəsaitlərinin dövlət təminatı əsasında bu layihələrə cəlb edilməsi;
- ayrı-ayrı vətəndaşların pay formasında investisiya fondlarının təşkilində iştirak etməsi;
- istiqrazlardan istifadə edilməsi.

İri əmtəəlik təsərrüfatlarının yaradılmasında investisiya fondları da mühüm maliyyələşmə funksiyalarına malikdir. İnvestisiya fondları əsas etibarilə müxtəlif dövlət qurumları və təşkilatları tərəfindən yaradılır. İnvestisiya fondları bir qayda olaraq sahələrarası və xüsusi təyinatlı fondlarda birləşdirilir. Bu fondlar qeyri-büdcə fondları formasında fəaliyyət göstərir və kənd təsərrüfatında iri əmtəəlik təsərrüfatların investisiya potensialının formalaşmasında əhəmiyyətli rol oynadığı əsaslandırılır.

Qeyd edilir ki, iqtisadiyyatın azgəlirli və təbii-iqlim şəraitindən asılı olan və riskli sahələrində bazar konyunkturundan asılılığın olması ilə bağlı dolayı təsir vasitələrindən istifadə edilməsi vacibdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan və ölkənin ərzaq bazarının maddi əsasını təşkil edən kənd təsərrüfatında davamlı inkişafın təmin edilməsində iqtisadi mexanizmlərdən istifadənin səmərəliliyinin yüksəldilməsi və maliyyə mexanizminin dəyişən iqtisadi şəraitə uyğun təkmilləşdirilməsi vacib hesab edilir.

İri təsərrüfatların formalaşdırılmasına dəstək vermək məqsədilə maliyyə-büdcə mexanizmlərindən geniş şəkildə istifadə edilməsi və kreditləşmənin təkmilləşdirilməsi üçün konkret təkliflər irəli sürülür.

Maliyyə-büdcə mexanizmi iqtisadi mexanizmin mühüm tərkib kimi elə təkmilləşdirilməlidir ki, bu əmtəə istehsalçılarının təsərrüfat-maliyyə fəaliyyətinin rentabelliyinin yüksəldilməsinə xidmət edir.

Tədqiqat işində dövlət kənd təsərrüfatı əmtəə istehsalçılarını əsas etibarilə büdcə və kredit tənzimləmələri hesabına stimullaşdırılması məsələlərinə geniş yer verilir. Bu xüsusilə iri əmtəəlik təsərrüfatların formalaşdırılmasında və inkişaf etdirilməsində mühüm əhəmiyyəti ilə seçilir. İri əmtəəlik təsərrüfatların büdcə və kredit tənzimləmələri yolu ilə dəstəklənməsi, onların dövriyyə vəsaitlərinə olan tələbatının ödənilməsində və risklərin səmərəli sığortalanmasında, bütövlükdə pul vəsaitlərinə olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynayır. Kapital ehtiyatları kənd təsərrüfatında geniş təkrar istehsalın həyata keçirilməsində əhəmiyyətli rola malikdir. Bir sıra hallarda kənd təsərrüfatında kapital ehtiyatlarının çatışmazlığı aqrotexniki tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsinə imkan vermir. Bu isə kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsinə və bütövlükdə məhsul istehsalının həcminin azalmasına səbəb olur. Bu da son nəticədə ölkənin ərzaq bazarında konyunktur dalğalanmalarına gətirib çıxarır. Qeyd edilir ki, ərzaq bazarında bəzi məhsullar üzrə yerli istehsalın xüsusi çəkisinin azalması halları baş verir və bu da ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində destruktiv tendensiyalar doğurur. Bu vəziyyətdə isə ölkə xarici ölkələrdən siyasi və iqtisadi cəhətdən asılı vəziyyətə düşür. Odur ki, bu kimi destruktiv tendensiyaların qarşısının alınması istiqamətində zəruri tədbirlər həyata keçirilməlidir ki, dövlətin siyasi və iqtisadi gücü zəifləməsin. Burada iri əmtəəlik təsərrüfatların formalaşdırılmasına istiqamətlənmiş stimullaşdırıcı tədbirlər kimi büdcə və maliyyə mexanizmləri mühüm rol oynayır. Bu mexanizmlər, müxtəlif güzəştlərin tətbiq edilməsini, kənd təsərrüfatı əmtəə istehsalçılarının büdcə vasitəsilə subsidiyalaşdırılmasını özündə birləşdirir. Əmtəə istehsalçılarının büdcə vasitəsilə subsidiyalaşdırılması konkret prioritet istiqamətlər üzrə həyata keçirilməlidir.

Son illər ölkə başçısı cənab İlham Əliyev tərəfindən kənd təsərrüfatında əmtəəlik məhsulların istehsalının artırılması ilə bağlı imzalanan fərman və sərəncamlarında kənd təsərrüfatı məhsullarının stimullaşdırılması prioritetlik kəsb etməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2007-ci il tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamı, 21 avqust 2008-ci ildə Azərbaycan Respublikası

Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanlarla təmin edilməsinə əlavə dəstək verilməsi barədə" imzaladığı sərəncamı bu prosesin əyani təzahürü kimi qiymətləndirilməlidir. Göstərilən sərəncama müvafiq olaraq kənd təsərrüfatı əmtəə istehsalçılarına becərdikləri hər hektar torpaq sahəsinə görə 40 manat, taxıl sahəsinə görə isə 80 manat məbləğində subsidiya verilməsinə başlanılmışdır, Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2015-ci il tarixli "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı ilə bu məbləğlər 25 faiz artırılmış və bu təcrübə hazırda uğurla davam etdirilməkdədir.

Dövlət büdcəsindən ödənilən yardımlar mahiyyət etibarilə kənd təsərrüfatında istehsalın nəticələrinə təsir göstərir. Bu zaman məhsuldarlığın səviyyəsinin başlıca amil kimi seçilməsi vacib şərtlərdən biri hesab edilir. Belə ki, əkin sahəsinin becərilməsinə görə yardım göstərilməsi, mineral gübrələrin və toxumların güzəştli satışına görə subsidiyaların verilməsi istehsal göstəricilərinə əhəmiyyətli təsir buna misal ola bilər.

**Cədvəl 3.**

**2014-cü ildə əkinlərin becərilməsinə görə yardım göstərilməsi, mineral gübrələrin güzəştli satışı və toxumun satışına görə subsidiyaların verilməsinin istehsala göstərdiyi nəticələr**

| Məhsullar | 2006 | 2011 | 2012 | 2013 | 2014 | 2014-cü il 2006-ci ilə nisbətdə (sen/hek) |
|---|---|---|---|---|---|---|
| a) Məhsuldarlıq (sen/hek) | | | | | | |
| 1)Taxıl | 26,5 | 25,4 | 27,2 | 27,5 | 24,0 | -2,5 |
| 2)Buğda | 26,7 | 25,1 | 26,9 | 27,5 | 24,0 | -2,7 |
| 3)Dən üçün qarğıdalı | 45,8 | 45,5 | 51,0 | 53,9 | 54,2 | 8,4 |
| 4)Pambıq | 13,0 | 15,5 | 19,5 | 19,3 | 17,9 | 4,9 |
| 5)Kartof | 145 | 144 | 147 | 152 | 133 | -12 |
| 6)Tərəvəz | 144 | 146 | 150 | 154 | 152 | 8,0 |
| 7)Tütün | 26,3 | 24,9 | 27,9 | 28,4 | 25,8 | -0,5 |
| 8)Meyvə | 76,2 | 71,7 | 73,8 | 74,3 | 72,0 | -4,2 |
| 9)Üzüm | 76,7 | 81,5 | 88,6 | 88,9 | 82,5 | 5,8 |

| b) İstehsal həcmi (min ton) | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | faizlə |
| 1)Taxıl | 2078,9 | 2458,4 | 2802,2 | 2955,3 | 2383,3 | 116% |
| 2)Buğda | 1639,8 | 1641 | 1847,5 | 1893,4 | 1449,1 | -112% |
| 3) Dən üçün qarğıdalı | 145,9 | 152,3 | 181,9 | 208,2 | 203,6 | 140% |
| 4)Pambıq | 130,1 | 66,4 | 57 | 45,2 | 41 | -169% |
| 5)Kartof | 999,3 | 938,5 | 968,5 | 992,8 | 819,3 | -118% |
| 6)Tərəfəz | 1186,4 | 1214,8 | 1216 | 1236,3 | 1187,7 | 100,11% |
| 7)Tütün | 4,8 | 3,6 | 4,3 | 3,5 | 2,9 | -140% |
| 8)Meyvə | 662,4 | 765,8 | 810 | 853,8 | 850,8 | 129% |
| 9)Üzüm | 94,1 | 137 | 151 | 148,5 | 147,7 | 157% |

2006-ci illə müqayisədə 2014-cü ildə dən üçün qarğıdalı becərilməsində 8,4 sentner, pambıqçılıqda məhsuldarlığın səviyyəsində 4,9 sentner, tərəvəzçilikdə 8 sentner, üzümçülükdə 5,8 sentner artım olmuşdur. Yardımların göstərilməsi nəticəsində 2006-ci illə müqayisədə 2014-cü ildə taxıl istehsalı 16%, qarğıdalı istehsalı 40%, tərəvəz istehsalı 0,11%, meyvə istehsalı 29%, üzüm istehsalı 57% artmışdır.

İri əmtəəlik təsərrüfatların formalaşdırılmasının maliyyə-büdcə mexanizminin təkmilləşdirilməsi, ilk növbədə kənd təsərrüfatı istehsalının gəlirliyinin artırılmasına xidmət edir. Bu baxımdan maliyyə-büdcə mexanizminin təkmilləşdirilməsinə istiqamətlənmiş tədbirlərin davamlı xarakter daşıması vacibdir. Fikrimizcə, kənd təsərrüfatı istehsalının gəlirliyinin artırılması, son nəticədə əmtəəlik səviyyəsinin yüksəldilməsi ilə sıx bağlıdır və bu problemin həllinə əslində iki istiqamətlə nail olmaq mümkündür. Onlardan birincisi əmtəə istehsalçılarının xərclərinin ödənilməsi məqsədilə məhsulların keyfiyyəti hesabına qiymətlərinin yüksəldilməsi, ikincisi isə istehsal xərclərinə birbaşa subsidiyaların verilməsi yolu ilə kənd təsərrüfatı məhsulları istehsalının maya dəyərinin aşağı salınması. Bütün bunları nəzərə alaraq kənd təsərrüfatında maliyyə-büdcə mexanizminin təkmilləşdirilməsinə istiqamətlənmiş stimullaşdırıcı tədbirləri aşağıdakı istiqamətdə yönəltmək məqsədə uyğun olardı:

- kənd təsərrüfatına tətbiq edilən vergi güzəştlərinin emal sənayesi sektoruna da şamil olunması;

- maliyyə-kredit siyasətinin təkmilləşdirilməsinə istiqamətlənmiş zəruri tədbirlərin həyata keçirilməsi. Belə ki, bu tədbirlər ilk növbədə güzəştli, prioritet sahələrin kreditləşdirilməsini, investisiya layihələrinin işlənib hazırlanmasını və həyata keçirilməsinə yönəldilməsi;

- güzəştli sığortalama tədbirlərinin həyata keçirilməsi və bunun əsas etibarilə kənd təsərrüfatı bitkilərinin ayrı-ayrı növlərinin məhsuldarlığının yüksəldilməsinə, eləcə də riskli regionlarda bitkiçiliyin inkişafına əlverişli şərait yaradılması;

- iri əmtəəlik təsərrüfatların yaradılması istiqamətində büdcə siyasətinin təkmilləşdirilməsi. Bu zaman prioritet sahələrin müəyyənləşdirilməsini. Dövlət əmtəə istehsalçıları üçün verilən kreditlərlə bağlı faiz dərəcələrinin subsidiyalaşdırılmasını həyata keçirməli, bununla bağlı dövlət maliyyələşdirilməsi, sığorta və lizinq müqavilələri üzrə xərclərin kompensasiya edilməsi dövlət dəstəyinin mühüm prioritetlərindən birini təşkil etməlidir;

- dövlət büdcəsindən ödənilən dotasiyaların, ilk növbədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və kəndin sosial-iqtisadi inkişafı baxımından strateji əhəmiyyətli sahələrə verilməsinin təmin edilməlidir.

İri əmtəəlik təsərrüfatlarda istehsal edilən məhsulların bir sıra hallarda etibarlı satış kanalının təmin edilməsi nəzərdə tutulmalıdır.

Dissertasiya işinin nəticəsində əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması ilə bağlı elmi cəhətdən əsaslandırılmış təcrübi əhəmiyyətli təkliflər işlənib hazırlanmışdır.

**Dissertasiya işinin əsas müddəaları aşağıda dərc olunmuş məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Əmtəəlik məhsul istehsalının artırılmasında iqtisadi stimullaşdırma vasitələrinin rolu, Maliyyə və uçot jurnalı, № 01-2013, s.29-36.
2. Kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına intensivləşdirmənin təsiri məsələləri, Azərbaycan Aqrar Elmi, № 01/2013, s.127-131.

3. Направления стимулирования увеличения экспорта продукции, Международный технико-экономический журнал, № 01/2014, с.61-65
4. Ərzaq bazarında əmtəələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsi, Audit jurnalı, № 2/2014, s.82-87.
5. Aqrar sahədə istehsal olunan məhsulların əmtəəlik səviyyəsinin yüksəldilməsi və onun rəqabət mühitinin tənzimlənməsində rolu, Azərbaycan Aqrar Elmi, № 02/2014, s.164-168.
6. Совершенствование обеспечения конкурентоспособности товарной продукции в сельском хозяйстве, журнал Экономика и Предпринимательство, № 7 (48) 2014 г. с.541-545
7. Ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılmasının rolu, Az.ETKİ və Tİ-nun elmi əsərləri, № 03/2014, s.72-78
8. Enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişafı üzrə 2-ci Beynəlxalq konfrans (1-3 oktyabr 2014-cü il Bakı). Growth of agriculture production requires new approach.
9. Gənc alim və mütəxəssislərin beynəlxalq konfransı (27-28 noyabr 2014-cü il Bakı). İnformasiya cəmiyyəti və Azərbaycanın ərzaq təhlükəsizliyi.
10. Aqrar islahatlar və rəqabət qabiliyyətli əmtəəlik kənd kənd təsərrüfatı məhsulları istehsalçılarının formalaşması, Bakı Biznes Universiteti, Konfrans materialları 05-06 may 2015-ci il, s.417-423
11. Respublika elmi-praktik konfrans (22 dekabr 2015-ci il Bakı). İxrac potensialının artırılmasında əmtəəlik kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinin rolu.
12. "Vergi sistemi" tədris proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Avrasiya Universiteti, 2014. 16 səh.
13. "İqtisadi təhlil və audit" tədris proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Avrasiya Universiteti, 2014. 16 səh.

# Резюме

## Тахмасиб Фаик оглы Гусейнов

## Стимулирование производства товарной и конкурентоспособной сельскохозяйственной продукции

Диссертация состоит из введения, трех глав, выводов и рекомендаций, списка использованной литературы.

Во введении обоснована актуальность темы исследования, определены состояние изученности проблемы, цели и задачи, объект, предмет, научные и методологические основы, информационная база, научная новизна и практическая значимость работы.

В первой главе диссертации исследованы объективная необходимость увеличения производства товарной и конкурентоспособной сельскохозяйственной продукции, стимулирующие факторы влияющие на повышение конкурентоспособности производства товарной сельскохозяйственной продукции, особенности формирования экономического механизма увеличения производства товарной сельскохозяйственной продукции.

Во второй главе оценена уровень товарности в сельском хозяйстве, динамика конкурентоспособности сельскохозяйственной и продовольственной продукции и государственной поддержки на производство продукции, анализирован существующее положение стимулирования экспортного потенциала товарной и конкурентоспособной сельскохозяйственной продукции.

В третьей главе определены роль инвестиций в увеличении производства товарной и конкурентоспособной сельскохозяйственной продукции, направления совершенствования и стимулирования финансово-бюджетного механизма формировании крупных предприятий товарной продукции, роль совершенствования и стимулирования механизма цен в формировании крупных хозяйств товарного производства в аграрном секторе.

В конце работы обобщены результаты исследования, предложены научно обоснованные предложения и рекомендации.

## Summary

**Tahmasib Faiq Huseynov**

**Stimulating production of commercial and competitive agricultural products**

The thesis consists of an introduction, three chapters, conclusions and recommendations, list of used literature.

In the introduction is substantiated the urgency of the theme of the research, are determined the state of study of the problem, goals and objectives, object, subject, scientific and methodological basis, informational base, scientific novelty and practical significance of the work.

In the first chapter of the thesis are investigated the objective necessity of increasing the production of commercial and competitive agricultural products and the stimulating factors affecting the increase of competitiveness of production of commercial agricultural products, the features of formation of economic mechanism for increasing production of marketable agricultural products.

In the second chapter are assessed the level of commercialization in agriculture, the dynamics of the competitiveness of agricultural and food products, and state support for production, are analyzed the current situation of stimulation of the export potential of the commercial and competitive agricultural production.

In the third chapter are defined the role of investment in increasing the production of commercial and competitive agricultural production, ways of improving and stimulating of financial-budget mechanism of the formation of large enterprises of commercial agricultural products, the role of improving and promoting the price mechanism in the formation of large farms of commercial production in the agricultural sector.

At the end of the thesis, are summarized the results of the study, offered scientifically sound suggestions and recommendations.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 29, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**ГУСЕЙНОВ ТАХМАСИБ ФАИГ оглы**

# СТИМУЛИРОВАНИЕ ПРОИЗВОДСТВА ТОВАРНОЙ И КОНКУРЕНТОСПОСОБНОЙ СЕЛЬСКОХОЗЯЙСВЕННОЙ ПРОДУКЦИИ

**5312.01-«Отраслевая экономика»**

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по экономике

**ГЯНДЖА – 2016**